# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahısı»nın təsdiq edilməsi barədə

# Qərar № 387

***Bakı şəhəri, 4 dekabr 2014-cü il***

«Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının 1.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

«İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin Siyahısı» təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Baş naziri***

***Artur RASİ-ZADƏ***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 dekabr 2014-cü il, № 274) («LegalActs» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir ( 31 dekabr 2014-cü il, № 12, maddə 1665) («LegalActs» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2014-cü il 4 dekabr tarixli*
*387 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# İl ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmayan fəaliyyət sahələrinin

## Siyahısı

1. Mədənçıxarma sənayesi

2. Emal sənayesi

3. Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat

4. İnformasiya və rabitə

5. Maliyyə və sığorta

6. Təhsil

7. Nəqliyyat

8. Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi.

---

*© «LegalActs» LLC*